**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ**

# ƏMR

№ 171

**Bakı şəhəri** "30" dekabr 2010-cu il

ARDNŞ-nin şirkətdaxili standartlarının təsdiq edilməsi barədə

"Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli Fərmanına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 22 aprel tarixli 258 nömrəli Fərmanı ilə Nizamnaməsinə əlavə və dəyişikliklər edilməklə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə bir sıra müstəsna səlahiyyətlər verilmişdir ki, bunun da nəticəsində Şirkət neft-qaz və neft-kimya əməliyyatları sahəsində ümumqəbul olunmuş beynəlxalq standartların tətbiq edilməsi imkanını əldə etmişdir. Standartlaşma sahəsində böyük təcrübəsi olan məsləhətçi şirkətlər cəlb edilməklə hal hazırda ARDNŞ-nin fəaliyyət sahəsinin prioritet istiqamətləri üzrə bir sıra standartların layihələri hazırlanmışdır. Bunlara standart sənədin istifadə və tətbiqinə, ARDNŞ-nin Baş ofisinin struktur bölmələrinin əsasnamələrinin tərtib edilməsinə, ARDNŞ üzrə komissiyaların təşkili və fəaliyyətinə, vəzifə təlimatlarının tərtib edilməsinə və tətbiqinə, Şirkət üzrə mənzil növbəsi uçotuna götürülmüş şəxslərin mənzil şəraitinin yaxşılaşdırılmasına yönələn, ARDNŞ-nin balansında olan qeyri yaşayış sahələrinin yaşayış sahələrinə keçirilməsinə və əmlakın icarəyə verilməsinə dair tələbləri özündə əks etdirən layihələri aid etmək olar.

Yuxarıda qeyd olanları nəzərə alaraq, tənzim etdiyi münasibətlərə dair ümumi norma, tələb və qaydaları müəyyən edən standartlar layihələrinin təsdiq və tətbiq edilməsi məqsədilə

əmr edirəm:

1. "Standartların istifadəsinə və tətbiqinə dair standart (SOCARSS – 001.2010)" təsdiq edilsin (əlavə olunur – Əlavə I).
2. "ARDNŞ üzrə Komissiyaların təşkili və fəaliyyətinə dair standart. (SOCARSS – 002.2010)" təsdiq edilsin (əlavə olunur – Əlavə II).
3. "ARDNŞ-nin Baş ofisinin struktur bölmələrinin əsasnamələrinin tərtib və təsdiq edilməsinə dair standart. (SOCARSS – 003.2010)" təsdiq edilsin (əlavə olunur – Əlavə III)
4. "Vəzifə təlimatlarının tərtib edilməsinə və tətbiqinə dair standart. (SOCARSS – 004.2010)" təsdiq edilsin (əlavə olunur – Əlavə IV)
5. "Əmlakın icarəyə verilməsinə dair standart. (SOCARSS – 005.2010)" təsdiq edilsin (əlavə olunur – Əlavə V).
6. "Əmlakın təyinatının dəyişdirilməsinə dair standart. (SOCARSS – 006.2010)" təsdiq edilsin (əlavə olunur – Əlavə VI)
7. SOCARSS – 005.2010 və SOCARSS – 006.2010 standartlarda nəzərdə tutulmuş Komissiyaların səlahiyyətləri ARDNŞ-nin 10 mart 2006-cı il tarixli 41 № li əmri ilə müəyyən edilmiş Komissiyaya həvalə edilsin.
8. Komisşiyaya tapşırılsın ki, öz fəaliyyətini bu əmrin 5-ci və 6-cı bəndi ilə müəyyən edilmiş standartlara və ARDNŞ-nin digər şirkətdaxili normativ sənədlərinə uyğun olaraq təşkil etsin.
9. ARDNŞ-nin Hüquq idarəsinə tapşırılsın ki, standartların elektron və kağız variantlarda qeydiyyatının aparılmasını, saxlanılmasını və aidiyyəti struktur bölmələri tərəfindən eyni qaydada tətbiq edilməsinə nəzarəti təmin etsin.
10. ARDNŞ-nin İnformasiya texnologiyaları departamentinə tapşırılsın ki, standartlar sisteminin proqramlaşdırılmasını, vahid bazasının yaradılmasını və ARDNŞ-nin veb səhifəsində müvafiq rubrika açmaqla Şirkətin standartlarının orada yerləşdirilməsini təmin etsin.

Prezident Rövnəq Abdullayev

ƏSLİ İLƏ DÜZDÜR
İcraya nəzarət, kargüzarlıq və təsərrüfat şöbəsinin rəisi
N.Səmədova
"30" 12 2010 il

*Əlavə 1*
*Azərbaycan Respublikası Dövlət*
*Neft Şirkətinin 30.12.2010 tarixli,*
*172 nömrəli əmri ilə*
*təsdiq edilmişdir*

SOCAR

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin standartlaşma sistemi**
Standartların istifadəsinə və tətbiqinə dair standart
(SOCARSS – 001.2010)

---

**01.1. Standartlaşma** - istehsalat və məhsulun tədavülü, iş və xidmət sahələrində münasibətlərin optimal tənzimlənməsinə yönələn, ümumi norma, tələb və qaydaları müəyyən edən sənədlərin işlənməsi, qəbul edilməsi, tətbiqi, yeniləşdirilməsi (əlavələrin, dəyişiklərin, düzəlişlərin edilməsi) və ləğvinə dair fəaliyyətdir.

**01.2. Standartlaşmanın məqsədi** - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ-nin) və onun strukturuna daxil olan qurumlarının fəaliyyət sahəsinin prioritet istiqamətləri üzrə münasibətləri vahid qaydaya uyğun optimal səviyyədə tənzimləyən standartların düzgün və eyni cür tətbiqini təmin etməkdir. Standartlaşma fəaliyyətinin nəticəsi standart sənədin qəbul edilməsidir.

**01.3. Standart sənəd** – ARDNŞ-nin fəaliyyət növləri və ya onların nəticələrinə aid ümumi prinsip, norma, qayda və xarakteristikaları özündə əks etdirən şirkətdaxili normativ sənəddir.

**01.4. Standart sənədin indeksi** – ARDNŞ-nin standartlaşma sisteminə daxil olan, fəaliyyət sahəsi üzrə qəbul edilmiş standart sənədin nömrəsini və qəbul edilmə tarixinin (məsələn, SOCARSS 001.2010) rəqəmli ifadəsidir.

**01.5. Resursun adı** – standart sənədin adıdır. Məsələn, "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin standartlaşma sistemi. Standartların istifadəsi və tətbiqi. SOCARSS 001.2010".

**01.6. Standartın qəbul edilməsi** – bu layihənin standart qismində təsdiq edilməsinə və tətbiqinə dair səlahiyyətli qurumun və ya vəzifəli şəxsin rəsmi (sənədləşdirilmiş) qərarıdır.

**01.7. Standartın qüvvəyə minmə tarixi** – standartın hüquqi qüvvəyə minməsini bildirən təqvim tarixi.

**01.8. Standartın tətbiqi** – standartın realizəsinə yönələn fəaliyyətdir. Standart səlahiyyətli vəzifəli şəxsin və ya qurumun müvafiq qərarı ilə qüvvəyə minir. Standartlaşmaya məruz qalan konkret münasibətlərdə aidiyyəti standart resursla müəyyən edilən tələbləri rəhbər tutmaq məcburidir.